# Taleyinin yol yoldaşı



**Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda şair-jurnalist Paşa Babakərlinin (Əmircanov) 65 illk yubiley mərasimi keçirildi.**

Ömrünün əlamətdar günü ərəfəsində “Taleyim – yol yoldaşım” adlı növbəti kitabı işıq üzü görən söz-sənət cəfakeşini təbrik etməyə çoxsaylı qələm dostları, yaxınları və oxucuları gəlmişdilər.

Məclisi AYB sədrinin müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid açaraq tələbə yoldaşı olmuş Paşanın maneerası, onu düşündürən mövzulara dair poetik və publisistik nümunələri eyni ustalıqla qələmə alması ilə bağlı fikirlərini konkret misallar əsasında bölüşdülər.

Paşa Babakərli 1960-cı ildə Gürcüstanın Marneuli rayonunun Qaçağan kəndində anadan olub. 1977-ci ildə bu kənddəki 2 saylı orta məktəbi əla və yaxşı qiymətlərlə bitirib. 1990-cı ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsilini başa vurub. O vaxtdan bir sıra respublika qəzetlərində, o cümlədən Müdafiə Nazirliyinin “Azərbaycan ordusu”, “Respublika”, “Ekspress”, “525-ci qəzet”, “Üç nöqtə”, “Yeni Qafqaz” və digər qəzetlərdə, “Trend” informasiya agentliyində müxbir, şöbə müdiri, redaktor, baş redaktor müavini kimi vəzifələrdə çalışıb. 2008-ci ilin aprel ayından “Xalq qəzeti”ndə işləyir. Eyni zamanda, könlünü döyən poetik duyğuları ağ vərəqlərə köçürərək elə şeir, poema halına gətirir ki, oxucu məhəbbəti qazana bilir.

Yubiley gecəsində də qeyd olunduğu kimi, Paşa Babakərli (Əmircanov) üçün Vətən Borçalıdan başlayır. Amma bu ulu torpağın bütün ziyalıları, qələm sahibləri kimi, o da bütöv Azərbaycan adına yazıb-yaradan istedad sahibidir. Yəni heç vaxt yetişdiyi mühitdə qapanıb qalmayıb, daim sırf milli ədəbi prosesin içində olub. Eyni zamanda, illərdən bəri Bakıda yaşasa da, Babakərli Borçalının bədii söz ənənələrinin kamil davamçılarından biri kimi tanınır. “Taleyim – yol yoldaşım” kitabına Azərbaycanın Xalq şairi Sabir Rüstəmxanlı “Bakıdan görünən Borçalı və dünya” adlı Ön sözündə onun yaradıcılıq əzmini layiqincə dəyərləndirib.

Paşa Babakərli qoşmalarının birində yazır:

**Sənin təbəssümün bir aləm işıq,**
**O işıq o gözə-qaşa yaraşır.**
**Ürəyin köklənib duyğular üstə,**
**Sevgisiz yaşamaq daşa yaraşır.**

Şair bu misralarla sanki özünün avtoportretini cızıb. Onun yeni toplusunun bədii məziyyətlərini çözələyən söz-sənət adamları ilk kitabı olan “Yola çıxdım”dan üzü bu yana Paşanın yaradıcılıq uğurlarını, “Ömür yoxuşdu, keçirəm” deyərək, sınaqlara sinə gərdiyini, nəhayət, 65 yaşının yubiley məclisində başına çoxsaylı dostlarını, oxucularını toplaya bildiyini fərəhlə vurğuladılar.



dəyişməz xarakter cizgilərindən, jurnalist bacarığı və şair fəhmindən bəhs etdi. P.Babakərliyə Mətbuat Şurasının yubiley diplomu təqdim olundu.

Digər çıxış edənlər – “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov, “Borçalı” İctimai-Siyasi Birliyinin sədri Dəyanət Osmanlı, ədəbiyyatşünas-alim Əsəd Cahangir, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Sahəddin Hüseynov, şair-publisist Knyaz Aslan və başqaları yubilyarın özəl keyfiyyətləri, məxsusi yaradıcılıq

Sonda çıxış edən Paşa Babakərli yubiley gecəsinin təşkilatçılarına və iştirakçılarına səmimi minnətdarlığını bildirdi və yeni şeirlərini oxudu.

***Ə.DOSTƏLİ,***
***R.İBRAHİMOV (foto)***
***XQ***

Xalq qəzeti .- 2025.- 30 oktyabr (№232).- S.14.